http://www.amu.edu.az

# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 09 (1649) 15 may 2017 - ci il Qiymәti 50 qәpik



Ulu öndər Heydər Əliyevin 94-cü ildönümü ilə əlaqədar anım mərasimi keçirilib 2

# Bakı Olimpiya Stadionunda IV İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimi olub

## Azərbaycan Prezidenti İlham Əliyev Oyunları açıq elan edib



Azərbaycan və onun paytaxtı Bakı səbirsizliklə gözlənilən anın – IV İslam Həmrəyliyi Oyunlarının açılışının həyəcan və sevincini yaşadı.

**BU SAYIMIZDA**

Rektor universitetimizdə çalışan veteranlarla görüşüb 2



İki xəstənin kliniki təhlili ilə bağlı müzakirələr aparılıb 3



ATU-da ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş rezidentlərin 5-ci elmi-təcrübi konfransı 5



ATU-nun Həmkarlar İttifaqı Komitəsinin toplantısı keçirilib 2

İmtahan nəzarətçiləri təlimatlandırılıb 3



Respublikanın Baş allerqoloqu mətbuat konfransı keçirdi 3

“Web of Science platformasının tibb və biologiya sahəsində çalışan mütəxəssislər üçün imkanları” mövzusunda seminar 5

KAFEDRALARDA TEC-İN KONFRANSLARI 6

# Ulu öndər Heydər Əliyevin 94-cü ildönümü ilə əlaqədar anım mərasimi keçirilib

**Azərbaycan Tibb Universitetində ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü ilə əlaqədar anım mərasimi keçirilib.**



ATU-nun rektoru, professor Gəray Gəraybəyli ümummilli lider Heydər Əliyevin gözəl insan və müdrik siyasətçi olduğunu deyib. Rektor bildirib ki, xalqımız ulu öndərin 94-cü ildönümünü təkcə Azərbaycanda deyil, ölkə hüdudlarından kənarda da qeyd edir: "Müxtəlif şəxsiyyətlərin tarixdəki rolu haqqında hər zaman diskussiyalar aparılır. Kimisi deyir ki, tarixi şəxsiyyətlər formalaşdırır, kimisi isə bunun əksini iddia edir. Lakin yaxın və keçmiş tariximiz onu göstərir ki, Heydər Əliyev şəxsiyyətinin Azərbaycanın formalaşmasında, tərəqqisində, inkişafında və dünya ictimaiyyətində tutduğu yerdə rolu danılmazdır. Özümüzü xoşbəxt saya bilərik, çünki ömrümüzün bir hissəsi Heydər Əliyevin rəhbərliyi dönəmində keçib. Biz Azərbaycanın necə dəyişdiyinin, inkişafının canlı şahidləriyik".

Ulu öndərin səhiyyə sahəsinin inkişafı istiqamətində əvəzsiz işlər gördüyünü deyən rektor Gəray Gəraybəyli, tibb müəssisələrinin əsaslı təmir edildiyini, yeni səhiyyə ocaqları tikildiyini və müasir avadanlıqlarla təchiz olunduğunu xatırladıb. Rektor həmçinin Heydər Əliyevin ATU-nun həyatında olan rolundan da bəhs edib. Onun sözlərinə görə, ümummilli lider hələ XX əsrin 70-80-ci illərində ilk dəfə respublikaya rəhbərlik etdiyi dövrdə Tibb İnstitutuna xüsusi diqqətlə yanaşıb. Ulu öndərin qayğısı nəticəsində ATU-da zəngin maddi-texniki baza yaradılıb, tədris korpusu, tələbə yataqxanası, xəstəxana və poliklinikalar tikilərək istifadəyə verilib, elmi-tədqiqat laboratoriyaları müasir cihazlar və avadanlıqla təchiz edilib.

ATU-nun İctimai Fənnlər kafedrasının professoru Fəxrəddin Məmmədov çıxış edərək, ulu öndər Heydər Əliyevin həm fəlsəfədə, həm də tarixdə uzun diskussiyalara səbəb olan bir alim olduğunu bildirib: "Bəşər tarixində şəxsiyyətlərin böyük rolu olub. Onlar bəşər tarixinə öz imzalarını atıblar. Azərbaycanda da belə şəxsiyyətlər var. Ulu öndər Heydər Əliyev də bəşər tarixinin ən böyük alimlərindən biri olub. O, birinci dəfə hakimiyyətə 60-cı illərin sonunda gəldi. O zaman respublikada vəziyyət ürəkaçan deyildi. Heydər Əliyev qısa müddət ərzində respublika iqtisadiyyatını, mədəniyyətini kifayət qədər yüksəyə qaldırdı".

Millət vəkili, ATU-nun tərbiyə işləri üzrə prorektoru, professor Rafiq Məmmədhəsənov ümummilli lider Heydər Əliyevin həyat yoluna nəzər salaraq, onun dövlət vəzifələrində çalışdığı müddətdə gördüyü işlər və həyata keçirdiyi layihələr haqqında ətraflı məlumat verib. O, Heydər Əliyevin çox çətin bir dövrdə Azərbaycan xalqının tələbi ilə respublikanın siyasi rəhbərliyinə qayıtdığını vurğulayaraq qeyd edib ki, ümummilli liderin rəhbərliyi altında qısa müddət ərzində ölkədə ordu və dövlət quruculuğu, ölkədaxili sabitlik və təhlükəsizlik təmin edilib. Onun rəhbərliyi ilə Azərbaycanın beynəlxalq əlaqələri inkişaf etdirilib, yeni neft-qaz strategiyasının və uzunmüddətli iqtisadi inkişafın əsasının qoyulması kimi iri miqyaslı tədbirlər həyata keçirilib.





Qeyd olunub ki, Azərbaycanın müasir inkişafı dahi lider Heydər Əliyevin adı ilə bağlıdır.

Tədbirdə daha sonra ATU-nun I daxili xəstəliklər və reanimatologiya kafedrasının dosenti Nağdəli Zamanov çıxış edərək Heydər Əliyevin nitqlərində estetik kateqoriyaların necə işlənməsi barədə düşüncələrini bölüşüb. Stomatologiya fakültəsinin xarici tələbəsi də ulu öndər haqqında öz ürək sözlərini söyləyib.

**Mənsur ƏLƏKBƏRLİ**

# Rektor universitetimizdə çalışan veteranlarla görüşüb

**Mayın 8-də Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli bu ali təhsil ocağında çalışan İkinci Dünya müharibəsi veteranları ilə görüşüb.**



Rektor G.Gəraybəyli faşizm üzərində qələbənin 72-ci ildönümü – 9 may Qələbə Günü münasibətilə "1941-1945-ci illər Vətən Müharibəsində fədakar əməyə görə" medalı ilə təltif edilmiş arxa cəbhə veteranlarını universitetin professor-müəllim heyəti və tələbələri adından təbrik edib: "Uşaq olanda çox bayramları qeyd edirdik. Amma 9 may Qələbə Günü hər zaman bu bayramlar içərisində xüsusi yer tutub. İstər məktəbdə, istərsə də baba-nənələrimizdən müharibə haqqında öyrəndiklərimiz bu bayramın əhəmiyyətini daha da artırırdı. XX əsrdə İkinci Dünya Müharibəsi illəri bəşəriyyət üçün ən ağır və dəhşətli dövr olub. Çox təəssüf ki, Qələbə Bayramı bir müddət qeyd olunmadı. Ancaq ulu öndərimiz Heydər Əliyev bu bayramın da qeyd olunmasının bərpasına nail oldu".

Daha sonra ATU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri Cahangir Qasımov rektorun əmri ilə tədbir iştirakçılarını tanış etdi. Əmrə əsasən arxa cəbhə veteranları – ATU-nun kommunal və qidalanma gigiyenası kafedrasının professoru Maqsud Qasımov, əmək gigiyenası və uşaq-yeniyetmələr gigiyenası kafedrasının dosenti Rəhim Orucov universitet rəhbərliyi tərəfindən pulla mükafatlandırıldılar.

# ATU-nun Həmkarlar İttifaqı Komitəsinin toplantısı keçirilib

• Azərbaycan Tibb Universitetində Həmkarlar İttifaqı Komitəsinin (HİK) toplantısı keçirildi. Toplantıda ATU-nun rektoru, professor Gəray Gəraybəylinin təlimatı ilə kafedra, yataqxana və klinikalarda nizam-intizam qaydalarının gücləndirilməsi və buna nə dərəcədə riayət olunması məsələləri müzakirə olundu.

Toplantıda ATU-nun Latın dili kafedrasının müdiri, dosent Bahadur Hüseynov kafedra işçilərinin nizam-intizam qaydasına riayət etmədiyi üçün inzibati tənbeh edildi.

Daha sonra ATU-nun idman kompleksinin müdiri Nuriyə Sebeşova, kompleksin tibb bacısı Simnarə Mahmudova və təlimatçı Royal Qocayev nizam-intizam qaydalarına riayət etmədikləri üçün komitə tərəfindən töhmət aldılar.



Toplantını ATU-nun HİK-nin sədri, dosent Cahangir Qasımov açaraq, komitə üzvlərini tədbirin gündəliyi ilə tanış etdi: "İlk olaraq ATU-nun Əczaçılıq fakültəsinin latın dili kafedrasının əməkdaşlarının əmək və nizam-intizamı pozması, daha sonra idman kompleksində işçilərin əmək və intizamın pozması və 1 saylı yataqxananın komendantı haqqında məsələlərə baxılacaq".

Həmçinin ATU-nun 1 saylı yataqxanasının komendantı Söhrab Əhmədova iş saatı bitmədən işdən getdiyi üçün töhmət verildi. Anbardar Anar İsmayılov isə əmək vəzifəsini kobud pozduğu üçün işdən azad edildi.

ATU-nun mətbuat xidməti

# İmtahan nəzarətçiləri təlimatlandırılıb

**Mayın 5-də Azərbaycan Tibb Universitetində imtahan nəzarətçiləri ilə toplantı keçirilib.**



ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev bu il imtahana nəzarətin başqa formatda həyata keçiriləcəyini bildirib: "Ayrı-ayrı kafedralardan 3-4 müəllim birbaşa imtahana nəzarət etmək üçün dəvət olunub. Bəzi müəllimlər ilk dəfə imtahanda nəzarətçi qismində iştirak edəcək. Bütün nəzarətçilərdən hədsiz diqqət tələb olunur".

ATU-nun Virtual Test Mərkəzinin (VTM) direktoru Şahin Bayramov mərkəz haqqında qısa məlumat verərək, imtahanda nəzarətçilərin görəcəyi önəmli işdən danışıb. O bildirib ki, VTM-də iki kompüter zalında 250-yə yaxın kompüter quraşdırılaraq lokal şəbəkədə birləşdirilib və ümumi server vasitəsi ilə idarə edilir. Bu mərkəzdə bir gündə 1000 nəfərdən çox tələbə imtahan verə bilir. İmtahan prosesinin şəffaflığını təmin etmək üçün hər bir kompüter zalında yerləşdirilmiş xüsusi veb-kameralar vasitəsilə imtahan prosesinin video-yazılışı aparılır: "İlk olaraq sizi təbrik edirəm ki, imtahanda nəzarətçi qismində seçilmisiniz, bu etimadı doğrultmusuz. Nəzarətçilərin üzərinə, əlbəttə ki, imtahan prosesində böyük yük düşür. Məsələn, nəzarətçi imtahana geciksə, bütün imtahan axsayar. Ona görə də bu cür hallar baş verməməli, tələbələri yoxlama güclü şəkildə aparılmalıdır".

ATU-nun imtahana nəzarət qrupunun rəhbəri, dosent Kamandar Yaqubov nəzarətçilərin üzərinə düşən konkret vəzifələrdən danışıb. Bildirib ki, imtahanda iştirak etmək üçün 136 nəfər nəzarətçinin əmri verilib: "Nəzarətçilər imtahanın gedişində ən əsas insanlardan biridir. Nəzarətçinin ən birinci vəzifəsi tələbələrin əyləşdirilməsidir. Çünki iki tələbə eyni fəndən imtahan verərsə, yanaşı düşməməlidir. Onun sağında-solunda əyləşən tələbələr digər fənlərdən imtahan verməlidir. Buna diqqət edilməlidir. İmtahan başlayandan sonra isə tələbələrin heç bir vasitədən istifadə etmədiklərinə əmin olmalıdır. Həmçinin, imtahan zamanı onların səhifələrinə baxmalı, başqa bir şəxsin yerinə imtahan vermədiklərini izləməlidir".



K. Yaqubov bildirib ki, əmri verilən şəxslər artıq mayın 3-dən doktorantların imtahanlarında iştirak edirlər. Onlar həmçinin VI kursun mayın 12-dən başlayacaq semestr və iyunun 1-5-də semestr və dövlət imtahanlarında iştirak edəcəklər.

Görüşdə qeyd olunub ki, seçilmiş müəllimlər Yay məktəbinin imtahanlarına da nəzarət edəcəklər.

# İki xəstənin kliniki təhlili ilə bağlı müzakirələr aparılıb

**Mayın 4-də Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Terapevtik Klinikasında iki xəstənin kliniki təhlili aparılıb.**



Təhlillərin əvvəlində çıxış edən direktorun müalicə işləri üzrə müavini Adil Nuriyev belə təhlilləri keçirməyin önəmindən danışıb.

O bildirib ki, əsas məqsəd ağır xəstələri professor və həkimlərin iştirakı ilə təhlil etmək, həmçinin klinikanın tədris yönümlü olduğunu nəzərə alaraq tələbə və rezidentlərin də bura cəlb edilməsini həyata keçirməkdir. Çünki kliniki təhlillərin aparılması çox vacib və məqsədəuyğundur.

A.Nuriyev kardiologiya şöbəsinə çox ağır vəziyyətdə gətirilən xəstə ilə bağlı danışıb. O, deyib ki, belə ağır xəstələri tələbələrin və rezidentlərin də görməyi çox vacibdir. Onları belə ağır xəstəliklərlə bağlı məlumatlandırmaq, maarifləndirmək bizim əsas vəzifəmizdir. Çünki bu xəstəliklər nadir yayılan xəstəliklər sırasına daxildir.

Daha sonra moderatorluğu professor Mehman Ağayevə məxsus 31 yaşlı –uzun müddət kəskin tubulointerstisial nefritdən əziyyət çəkən xəstə ilə bağlı Şəhla İsmayılova danışıb.

Kəskin tubulointerstisial nefrit xəstəliyi haqqında məlumat verən Ş.İsmayılova bu xəstəliyin böyrəklərin kəskin xəstəliyi olduğunu bildirib.

"Bu, ekzo- endogen faktorların təsirinə qarşı cavab olaraq, əksər hallarda kəskin böyrək zədələnməsinin inkişafı ilə müşayiət olunan böyrəklərin interstisial toxumasında iltihabi dəyişiklərin baş verməsi ilə səciyyələnir.

O, 31 yaşlı kəskin böyrək zədələnməsi ilə ağırlaşmış, diaqnoz şərhi isə qeysəriyyə əməliyyatından sonra qeyri-steroid iltihab əleyhinə (QSİPƏP) preparatların qəbulundan sonra ağırlaşmış xəstə ilə bağlı çıxış edib.

"Burda məqsəd xəstəliyin o qədər də az rast gəlinməadiyini diqqətə çatdırmaqdır. Bu xəstəlikdə diaqnozu vaxtında qoymaq çox çətindir. Bu, kəskin nefroloji xəstəliklər qrupunda ayrıca nozoloji vahid kimi götürülür. Son zamanlar revmatoloji xəstəliklərin artması fonunda QSİPƏP təyini artdığından kəskin tubulointerstisial nefritin profilaktikası qətiyyən nəzərdən yayınmamalıdır".

Ş.İsmayılova sonda xəstəliyə diaqnoz qoymaq üçün mütləq böyrək biopsiyası aparılmasının vacib olduğunu da diqqətə çatdırdı.

2-ci 12 yaşlı xəstə ilə bağlı isə dosent Rauf Bəylərovun moderatorluğu ilə Mədinə Hacıyevanın çıxışı dinlənildi.

M. Hacıyeva uşaqlarda sidik ifrazat sistemi xəstəlikləri arasında nefrotik sindroma çox tez-tez rast gəlindiyini bildirdi: "Bu xəstəlik geniş yayılmış xəstəliklər sırasına daxildir. Ona görə də çalışdığımız qədər bu xəstəliklə bağlı müzakirələrə geniş yer verməliyik. Bu gün bizim bu xəstəni təhlil etməyimizdə əsas məqsəd də tələbə və rezidentləri maarifləndirmək, eləcə də uşağın həyat keyfiyyətinin yüksəldilməsinə xidmət etməkdir.

M.Hacıyeva bu uşağın 1 yaşından nefrotik sindromdan əziyyət çəkdiyini qeyd edib. Uşaq klinikamıza sidik ifrazının azalması və bütün bədəndə ödem şikayətləri ilə gətirilmişdi. Həkimlərin səyi nəticəsində onun müalicələrində irəliləyişlər var və ümid edirik ki, bunlar nəticəsiz qalmayacaq".

Klinik təhlil professor-həkimlərin müzakirəsi ilə davam etdirilib.

ATU-nun mətbuat xidməti

# Respublikanın baş allerqoloqu mətbuat konfransı keçirdi

**Astma geniş yayılmış xəstəliklərdən biridir və hazırda dünyada 150 milyon nəfər bronxial astmadan əziyyət çəkir. Təxmini hesablamalara görə, ölkəmizdə xəstəliyə yoluxma faizi əhalinin 5-8 faizi civarındadır.**



Lakin ekologiyanın pozulması və genetik səbəblərdən xəstələrin sayı ilbəil artır. Mütəxəssislərin fikrincə, xəstəliyin yayılmasında irsi faktorlar çox böyük rol oynayır. Bronxial astmanın yayılmasının digər ən mühüm yayılma yolu məişət gənələridir. Çox kiçik, mikroskopik ölçüdə olan həmin gənələr üçün yataq dəstində, yorğan-döşəkdə olan 37 dərəcə temperatur, yüz faiz nisbi rütubət münbit şərait yaradır. Ona görə də yaşayış şəraiti pis olanda, o cümlədən yataqxana və zirzəmidə məişət gənələrinin inkişaf etməsi və yayılması daha rahat olur.

Tibb Universitetinin Tədris Terapevtik Klinikasında Səhiyyə Nazirliyinin baş allerqoloqu, professor Cəbrayıl Məmmədov keçirdiyi mətbuat konfransında xəstəliyin yayılma şəraiti ilə yanaşı, onun profilaktikası barədə də geniş məlumat verib: "Məişət gənələrinin ən çox qorxduğu günəş şüalarıdır. Bu səbəbdən biz xəstələrə həmişə günəş işığının daha çox düşdüyü otaqda yaşamağı məsləhət görürük. Otaqdakı səliqəsizlik, bir çox əşyaları üst-üstə yığmaq da həmin gənələrin inkişafına səbəb olur. Yastıq, yorğan və döşəyin tez-tez dəyişilməsi də vacib profilaktik şərtdir. Gənələr tükdən və yundan olan yataq dəstini çox sevirlər, onları sinteponla əvəz etmək də onun çoxalmasının qarşısını ala bilər".

Astma xəstəliyinin diaqnostikası, onunla mübarizə tədbirləri barədə ətraflı məlumat verən professor ölkəmizdə onun yayılma arealından da danışıb. Baş allerqoloqun dediyinə görə, Abşeron regionunda dənizə yaxınlığıdqca onun yayılması və çoxalması üçün daha əlverişli mühit yaranır. Sonrakı yerdə Lənkəran-Astara zonası gəlir. Naxçıvanda da astma xəstələrinin sayı çoxluq təşkil edir. Lakin dağlıq və dağətəyi rayonlarda onun əmələ gəlməsi üçün o qədər də münbit şərait yoxdur.

Mətbuat konfransında C.Məmmədov xəstəliyin əlamətləri barədə danışarkən deyib: "Xəstələrin 70-80 faizində astma tutmalarından əvvəl burun axmaları başlayır. Təəssüf ki, bəzən həmin əlamətləri qripə oxşadır və dəyişik salırlar. Əslində isə həmin əlamət astmaqabağı allergik rinitdir. Ona görə də allergik rinit əlamətləri yarananda xəstə otolarinqoloq yox, ilk növbədə, allerqoloq müayinəsindən keçməlidir. Allergen əlamətlər aşkar edildikdə spesifik immunoterapiya vasitəsilə xəstəliyin qarşısını almaq mümkündür".

Professor onu da qeyd edib ki, allergik rinit dövründə xəstəliyi sağaltmaq olar, lakin xroniki hala keçəndən sonra onu etmək mümkünsüz olur. Lakin bu, heç də astmanın müalicəsiz olduğu kimi başa düşülməməlidir. Astma tam sağalmasa da, müalicəyə tabe olan xəstəlikdir. Düzgün həkim müalicəsi alanda xəstəlik heç də qorxulu deyil və ona yoluxanlar uzun ömür sürə bilərlər. Ona görə də düzgün həkim seçimi də bu sahədə heç də az əhəmiyyət kəsb etmir.

Mətbuat konfransında jurnalistləri maraqlandıran suallara cavablar da verilib.



# "Strateji hədəfimiz – təhsilin keyfiyyətinin artırılmasıdır"

## ATU-nun rektoru, professor Gəray Gəraybəyli universitetdə tətbiq olunan yeniliklərdən danışdı

Bir il öncə Azərbaycan Tibb Universitetində yeni təyinat baş verdi. Professor Gəray Gəraybəyli bütün karyerasını həsr etdiyi doğma universitetin rektoru təyin olundu.

İstənilən sahədə bir il hesabat vermək üçün ilkin mərhələ sayılır. Bu müddətdə Azərbaycan Tibb Universitetində nələr dəyişdi, yeni rektor hansı sahələrə diqqəti daha da artırdı?

Hədəflər nə idi və bir ildən sonra gözləntilərin doğrulduğunu demək olarmı?

Bütün bunlar haqqında ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə müsahibəni təqdim edirik:

**- Artıq bu işə başlamağınızın bir ili tamam oldu. Yəqin ki, yeni işə başlayanda müəyyən dövr üçün hədəfləriniz olub. İndi keçən müddətə baxanda, nə demək olar-qarşıya qoyulan hədəflərə nə dərəcədə nail olundu?**

- Bir il bir tərəfdən qısa, digər tərəfdən isə kifayət qədər böyük bir dövrdür. İndi geriyə baxanda deyə bilərəm ki, bir il çox tez keçib getdi. Və bu bir ilin hər gününü çox gözəl xatırlayıram. Çünki bu günlər çox gərgin, hadisələrlə zəngin günlər oldu.

Əlbəttə ki, əsas hədəf universitetin gələcək inkişafı ilə bağlıdır. Bunun üçün ilk olaraq universitetin bütün istiqamətlər üzrə fəaliyyətini monitorinq etmək qərarına gəldim. Məqsəd də o idi ki, ən çətin, ən zəif bəndləri aşkarlayım və imkan daxilində bu problemlərin həlli yollarını tapaq. Hesab edirəm ki, bu bir ildə qarşıya qoyulan hədəflərin böyük əksəriyyətinə nail olmuşuq.

**- Bu bir ildə tədris prosesində nələr dəyişdi? Bildiyimiz qədər, dövlət imtahanlarına kimi bir çox yeniliklər tətbiq olundu. Artıq hansısa nəticələrdən danışmaq olarmı?**

-Əsas strateji hədəfimiz tədrisin keyfiyyətinin yaxşılaşdırılmasıdır. İstəyirik ki, ATU-nun məzunları artıq savadlı, tam yetişmiş həkim kimi universiteti bitirsinlər. Bunun üçün də imtahanlar, tədris prosesinin təkmilləşdirilməsi ən vacib meyarlardan biridir. Bu məsələ ilə bağlı əsasən 2 istiqamətdə işlər aparılıb. Birincisi-obyektivliyin, şəffaflığın artırılması, hansısa subyektiv faktorların aradan qaldırılması, ikincisi – tələbələrin praktiki vərdişlərinin yüksəldilməsi.

Bizim tələbələrimizin əksəriyyəti yüksək nəzəri biliklər nümayiş etdirirlər. Lakin praktiki vərdişlər istədiyimiz səviyyədə deyil. Məhz bu istiqamətdə son bir il ərzində konkret işlər görülüb. Məsələn, artıq dövlət imtahanları iki formada aparılır: həm şifahi nəzəri biliklərin yoxlanılması üçün test imtahanları, həm də bilikləri və praktiki vərdişləri nümayiş etdirmək üçün beynəlxalq OSKİ imtahanları tətbiq edilir. Bu sistem ötən ilin yayında universitetimizdə ilk dəfə tətbiq olundu. Bu imtahanlarda iştirak edən tələbələrin həqiqi rəyini öyrənmək üçün imtahan aparılan mərkəzlərdə anonim qutular yerləşdirdik. Nəticədə fərqli məktublar aldım. Tələbələr yeni sistemin tətbiqindən razılıq edirdilər. Hətta OSKİ imtahanlarının digər kurslarda, yəni kliniki fənlərdə də tətbiqini təklif edirdilər. Bu, çox sevindirici bir haldır. Gələcəkdə kliniki bazaya gedən tələbənin öz imtahanını həm vərdiş, həm kliniki formada verə bilməsi üçün işləri davam etdiririk.

Digər tərəfdən, bu ildən birinci kursların kurs imtahan forması da dəyişdi. Çünki bir neçə il bundan öncə universitetin keçmiş rəhbərliyinin təşəbbüsü ilə ATU-da test imtahanları tətbiq edildi. Məqsəd şəffaflığa nail olmaq, müəllim-tələbə münasibətlərində xoşagəlməz və neqativ halların qarşısını almaq idi. Buna da nail olundu. Təəssüf ki, artıq bu test imtahanlarında da problemlər yaşanır. Məsələn, tələbələr cavabları öncədən əldə edirdilər. Açıq deyirəm, bəzən tələbələrə cavabları satırdılar. Biz də istədiyimiz obyektivliyi itirdiyimiz üçün beynəlxalq təcrübədən istifadə edərək, mütəxəssisləri dəvət etdik. Bu şəxslər ATU-nun müəllimləri deyil, sırf testlə məşğul olan nümayəndələrdir. Onlar bir neçə Avropa ölkələrində: Almaniya, İsveçrə və digər ölkələrdə təcrübə keçib. Biz onları dəvət etdik, fikirlərini öyrəndik.

I kursların qış imtahan sessiyasında sınaqlar yeni üsulla aparıldı. Bu yenilik həm imtahan zamanı tələbəyə verilən vaxtda, həm də sualların keyfiyyətində özünü göstərdi. Biz imtahandan bir ay öncə sualları internetə yerləşdirdik. Bu, tələbəyə özü-özünü təkmilləşdirməsinə imkan verir. Müşahidə etdik ki, tələbələr hər dəfə suallardan daha çox bal toplayır. Demək, tələbə hər dəfə daha yaxşı hazırlaşır, özünü təkmilləşdirir.

**- Universitetin özəyini peşəkar kollektiv təşkil edir. Bəs müəllim heyətinin ixtisasını artırmaq üçün hansı addımlar atılır?**

-Tamamilə razıyam, peşəkar kollektiv hər bir ali təhsil ocağının əsasıdır. Əvvəla, son bir ildə biz professor-məsləhətçi vəzifəsini təsis etdik. Hər bir kollektivdə olduğu kimi, bizdə də ağsaqqal, böyük təcrübəyə malik mütəxəssislərimiz, müəllimlərimiz var. Onlar bizim Qızıl Fondumuzdur, onların təcrübəsindən daim yararlanmalıyıq. Eyni zamanda, elm və səhiyyə daim inkişaf edir. Biz xaricdə təhsil alan, orada praktikadan keçən, müxtəlif dillər bilən həkimlərimizdən, gənc kadrlardan da müəllim kimi istifadə etməliyik. Ona görə də professor-məsləhətçi vəzifəsini təsis etməklə həm yaşlı kadrların sosial statusunu, kafedradakı yerlərini qoruya bildik, həm də gənc kadrlara yol açmış olduq.

Digər tərəfdən, müəllim də daim öz üzərində işləməlidir.

Müəllim nə vaxtsa aldığı biliyi hər il eynilə tələbəyə ötürə bilməz. Bəzən elə olur ki, müəllimlər elə 30 il bundan əvvəl oxuduğu mühazirəni yenə auditoriya qarşısında oxuyur. Artıq hər kəsin internetə çıxışı var, tələbələr hər şeydən məlumatlıdırlar. Buna görə də biz bu il müəllimlərin biliklərini yoxlamaq üçün reytinq bal şkalası üzrə xüsusi komissiya yaratdıq. Bu bal reytinq şkalasında müəyyən bəndlər tələbənin müəllim haqqında fikrini ifadə edir. Ola bilər ki, müəllim güclü bir mütəxəssisdir, amma pedaqoq kimi zəifdir.

Bir neçə ay bundan öncə ilk olaraq innovasiya şöbəsinin nəzdində yeni "Təhsilin keyfiyyətinin təminatı və innovasiya" şöbəsi yaradıldı. Məhz bu şöbə tələbələri deyil, müəllimlərin necə dərs apardıqlarını yoxlayacaq. Bizim universitetdə xaricdə oxumuş, Avropanın tədris sistemini bilən mütəxəssislərimiz də var. Mən onlarla görüşmüşəm, onların tədris prosesinə qatılmasının tərəfdarı olduğumu bildirmişəm. Biz artıq beynəlxalq əlaqələrimizdən də istifadə etməyə başlamışıq. İnanıram ki, bunların hər biri bu işə müsbət təsirini biruzə verəcək.



**-Tələbə olmasa universitet də olmaz. Bildiyimiz qədər, tələbələrin rəyi sizin üçün önəmlidir. Hətta onları daha yaxşı eşitmək, istəklərini öyrənmək üçün xüsusi görüşlər də keçirirsiniz. Tələbələr nə istəyirlər?**

-Tələbələrin istəklərinin böyük əksəriyyəti keyfiyyətli tədrislə bağlıdır. Bəzən onlar müəyyən müəllimlərdən, dərsliklər və informasiya mənbələrinin qıtlığından da gileylənirlər. Bizim tədris proqramımızın digər xarici ölkələrin proqramlarından fərqli olduğunu da deyirlər. Çünki sonradan bu, təhsilini xaricdə davam etdirmək istəyən tələbələrə çətinlik yaradır. Bəzi tələbələr praktiki məşğələlərin az olmasından şikayət edirlər. Müəyyən patologiyalar üzrə xəstələr klinikalara daxil olmadığından, həmin xəstəliyin gedişini əyani müşahidə edə bilmirlər. Azsaylı sosial xarakterli şikayətlər də olur.

**-Tibb elmi yerində saymır, hər gün hansısa yeniliklər barədə xəbərlər yayılır. ATU həm də elm ocağıdır. Elmi tədqiqatların aparılması üçün hansı şərait var və gənc alimlərimizdən gözləntilər özünü doğruldurmu?**

-Elm hər bir universitetin vacib tərkib hissəsidir, bu olmasa, keyfiyyətli təhsildən danışa bilmərik. Elmi Şurada səslənən son hesabata arxalanaraq deyə bilərəm ki, universitetimizdə elmi işlərin yüksək səviyyədə araşdırılması üçün kifayət qədər şərait var. Azərbaycanda heç yerdə olmayan elektron mikroskop ATU-da mövcuddur. Müxtəlif sahələrdə araşdırma aparmağa imkan verən laboratoriyalarımız, elmi-tədqiqat mərkəzimiz var. Onların bəzilərini yeniləməyi planlaşdırırıq.

Hazırda əsas hədəfimiz xarici ölkələrin universitetləri ilə qarşılıqlı elmi işlər aparmaqdır. Bunun üçün biz müxtəlif universitetlərlə qarşılıqlı əməkdaşlıq sazişləri bağlayırıq. Və bu haqda müraciətlərin sayının artması sevindirici haldır.

ATU-da rezidentlərin və gənc alimlərin konfransların keçirilməsi bizim gözəl ənənələrdən biridir. Bunlar artıq ənənəvi xarakter alıb. Bir neçə ay əvvəl Tələbə Elmi Cəmiyyətin konfransı baş tutub. Bir müddət öncə 3 tələbəmiz Rusiyada keçirilən elmi festivalda iştirak ediblər, hətta 1-ci yeri qazananı da olub. Bunlar da tələbələrimizin fəallığını göstərir. Ancaq hələlik tələbələrimizin elmi-tədqiqat sahəsində iştirakından tam razı olduğumu deyə bilmərəm.

**- Və sonda həkim-müəllim olmaq rahatdı, yoxsa rektor?**

-Əlbəttə, həkim-müəllim olmaq asandır. Yəqin ki, hər bir insanda anadangəlmə hansısa bir sahəyə maraq, daxili cəzbetmə qüvvəsi olur. Mən həmin hissin təsiri ilə ATU-ya gəldim. Qismət elə gətirdi ki, elə bu universitetdə çalışmağa davam etdim. Uzun illər həkim və müəllim kimi fəaliyyət göstərdim. Açığı, indinin özündə də kafedramızda həm müəllim, həm həkim olaraq çalışıram. Və bu fəaliyyət hazırda rektor kimi üzərimdə olan məsuliyyətin öhdəsindən gəlməyə, emosional baxımdan bərpa olunmağıma kömək edir.

**Günel ASLANOVA**

# ATU-da ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş rezidentlərin 5-ci elmi-təcrübi konfransı

**Mayın 11-də ATU-nun böyük akt zalında öz işinə başlayan Azərbaycan Tibb Universiteti Rezidentlərinin xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr edilmiş 5-ci Elmi-təcrübi (ATUREK-5) Konfransının əvvəlində tədbir iştirakçıları foyedə rezidentlərin elmi-tədqiqat işlərini əks etdirən pasterlə tanış oldular.**

Konfrasın açılışı zamanı professor-müəllim heyətini, rezidentləri və qonaqları salamlayan universitetin rektoru, professor Gəray Gəraybəyli Azərbaycan Tibb Universiteti Rezidentlərinin Elmi-Təcrübi Konfransının (ATUREK) əhəmiyyətindən danışaraq qeyd etdi ki, rezidentlər yüksək ixtisaslı mütəxəssis, həkim kimi hazırlanmaqla yanaşı, elmi-tədqiqat işlərinə də cəlb olunmalıdır. O, son illər təhsil sistemində, xüsusilə tibb təhsili sistemində böyük islahatların aparıldığını xatırladaraq ikipilləli təhsil prosesinə keçidi inqilabi bir proses kimi qiymətləndirdi.

İlk dəfə 2013-cü ildə keçirilən ATUREK-in universitetimizdə ənənəyə çevrildiyini bildirən rektor bu konfransların rezidentlər və mütəxəssislər arasında təcrübə mübadiləsinin aparılmasına, onların elmi əlaqələrinin gücləndirilməsinə imkan yaratdığını vurğuladı.

Azərbaycanın təhsil, səhiyyə sahəsindəki uğurlarını ölkə başçısının uzaqgörən siyasətinin nəticəsi kimi dəyərləndirən G.Gəraybəyli gənclərin gələcəyinə xüsusi diqqət ayrıldığını söylədi. Bu baxımdan Səhiyyə Nazirliyinin diqqət və qayğısı sayəsində elmi-təcrübi konfransların daha geniş, zəngin formatda keçirildiyini vurğulayan rektor təkcə Tibb Universiteti rezidentlərinin deyil, ölkəmizin digər bazalarından olan rezidentlərin də bu konfransa elmi işlər təqdim etməsinin müsbət hal olduğunu diqqətə çatdırdı.




Rezidentləri və onların elmi rəhbərlərini təbrik edən G.Gəraybəyli konfransın işinə uğurlar dilədi.

Bundan sonra konfrans rezidentlərin elmi tədqiqat işlərinin dinlənilməsi ilə davam etdi.

İki gün davam edən konfransın bağlanışında çıxış edən universitetin elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov maraqlı kliniki müşahidələrə, aparılan elmi tədqiqatların nəticələrinə dair qarşılıqlı müzakirələrin zəruriliyini önə çəkərək dinlənilən məruzələrdə təbabətin aktual problemlərinə toxunulduğunu dedi.





Eyni zamanda konfransın yüksək səviyyədə, beynəlxalq standartlara uyğun keçirilməsinə görə universitet rəhbərliyi adından təşkilat komitəsinin üzvlərinə, məruzəçilərə təşəkkürünü bildirdi.

Rezidentura şöbəsinin müdiri, professor Rizvan Məmmədov ATUREK-in 2013-cü ildə keçirilən ilk konfransına cəmi 41, bu günkü konfransa isə 204 işin təqdim olunduğunu xatırlatmaqla diqqəti 5 ildə qazanılan uğurlara yönəltdi. Elmi-təcrübi konfransların keçirilməsində universitet klinikalarının köməyini xüsusi qeyd edən R.Məmmədov gələcəkdə ATUREK konfranslarının beynəlxalq səviyyədə təşkilinin, rezidentlərin məqalələrinin xarici ölkələrin yüksək statuslu jurnallarında nəşrinin nəzərdə tutulduğunu söylədi.

Tədris Terapevtik Klinikasının direktoru, professor Hüseyn Qabulov, Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadiyev və Səhiyyə Nazirliyinin nümayəndəsi Təranə xanım Əhmədova da konfransın işini yüksək qiymətləndirərək gənc tədqiqatçılara elmi fəaliyyətlərində uğurlar arzuladılar.

Konfransın yekununda münsiflər heyəti tərəfindən seçilmiş ən maraqlı məruzələrin müəllifləri xüsusi hazırlanmış plaket, diplom və hədiyyələrlə mükafatlandırıldı. Həmçinin, konfransın bütün iştirakçılarına sertifikatlar təqdim olundu.

"ATUREK-5" konfransın ilk gününün gedişatını özündə əks etdirən video-çarxın nümayişi ilə başa çatdı.

Qeyd edək ki, bu gün universitetimizin ən müasir tibbi avadanlıqlarla təchiz olunmuş tədris-terapevtik, tədris-cərrahiyyə, onkoloji və stomatoloji klinikalarında, eləcə də digər ixtisas kafedralarında 30-dan çox ixtisas üzrə 650-dək rezidentimiz təcrübi və elmi biliklərini artırırlar. 2013-cü ildən başlayaraq öz təcrübi bacarıqlarının artırılması məqsədilə müxtəlif ixtisaslar üzrə rotasiya keçmək üçün xarici ölkələrə ezam olunur. Hər il təxminən 100-120 nəfər rezident universitetlər arasındakı müqavilələr əsasında Türkiyənin müxtəlif universitetlərində, eləcə də Almaniyada, İsveçdə, Norveçdə, Fransada, ABŞ-da və digər ölkələrdə 3-8 ay müddətində rotasiyada olurlar. Bundan başqa, müxtəlif ixtisaslar üzrə hər il 10-dan çox rezidentimiz öz rəhbərləri ilə bərabər xarici ölkələrdə elmi konfranslarda, simpoziumlarda iştirak edirlər. Artıq universitetin bütün ixtisaslar üzrə məzunları var. Onlar ölkəmizin müxtəlif klinikalarında və bəziləri kafedralarda assistent və doktorant kimi uğurla fəaliyyət göstərirlər.

**Arif MƏMMƏDLİ**

**Fotolar Cənnətalı Çingizindir**

## "Web of Science platformasının tibb və biologiya sahəsində çalışan mütəxəssislər üçün imkanları" mövzusunda seminar keçirilib

**◆ Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında "Web of Science" platformasının effektiv istifadəsi üzrə "Web of Science platformasının tibb və biologiya sahəsində çalışan mütəxəssislər üçün imkanları" mövzusunda seminar keçirilib.**



Seminarda iştirak etmək üçün Bakıya gələn Ukrayna Milli Elmlər Akademiyası Molekulyar Biologiya və Genetika İnstitutunun əməkdaşı, b.e.n. İrina Tixonkova bir neçə tədris müəssisəsində, o cümlədən Azərbaycan Tibb Universitetində olub. Qonaq seminar iştirakçılarının suallarını cavablandırıb. Seminarda ATU-nun aspirant-müəllim heyəti də iştirak edib.

Qeyd edək ki, 2015-cı ilin dekabrın 22-də Azərbaycan Respublikasının Təhsil Nazirliyi və dünyanın ən tanınmış elmi-analitik informasiya təminatçısı olan "Thomson Reuters" şirkətinin Elmi-tədqiqatlar və intellektual mülkiyyət üzrə şöbəsi arasında əməkdaşlıq haqqında müqavilə imzalanıb. Bu müqaviləyə əsasən, Azərbaycanın 100 müəssisəsi Təhsil Nazirliyinin sifarişi əsasında dünyada məşhur elmi istinad indeksi olan "Web of Science®" platformasına, eləcə də şirkətin əsas məhsulu olan "Thomson Reuters İnCites™" bazasına tam çıxış əldə ediblər. Bu, dünya ali təhsil müəssisələri və elmi dairələrinin fəaliyyətinin məhsuldarlığını təhlil etmək fürsəti verən elmi tədqiqatların qiymətləndirməsinə imkan verən bir alətdir.

Hazırda "İnCites™" platforması dünyanın 7000-dən artıq tanınmış universiteti, tədqiqat institutu, dövlət qurumu və şirkəti tərəfindən istifadə olunur. Burada dünyanın 18000 ən yaxşı dərgiləri, konfrans materialları, monoqrafiyalar, patentlər indeksləşdirilib.

ATU-nun mətbuat xidməti

## 12 may BEYNƏLXALQ TİBB BACISI GÜNÜDÜR!

**Klinikamızın zəhmətkeş və işgüzar tibb bacıları tək xəstələrin qeydinə qalmır, eyni zamanda həkimlə xəstə arasında əvəzsiz körpü rolunu oynayır.**



1972-ci il mayın 12-dən etibarən ingilis mənşəli tibb bacısı Florens Naytinqeylin şərəfinə tibb bacıları günü kimi qeyd olunmağa başlayıb. Sözügedən gün Beynəlxalq Qırmızı Xaç Komitəsinin qərarına əsasən, təsis olunub. Həmçinin, bu komitənin 1912-ci ildə keçirilən 9-cu konfransında yaralı əsgərlərə kömək göstərən tibb bacılarını təltif etmək üçün yaradılan xüsusi medala Florens Naytinqeyl adı verilib.

Xatırlananlar

# Peşəkar həkim, unudulmaz müəllim



**• Ölkəmizdə tibb kadrlarının yetişməsində misilsiz rolu olan, ömrünün təxminən 60 ilik dövrünü gənc həkimlərin təliminə, onların layıqli vətəndaş kimi tərbiyə olunmasına həsr etmiş ATU-nun Daxili xəstəliklərin propedevtikası kafedrasının dosenti Fatimat xanım Adıgözəlova bu gün həyatda olmasa da, yaxınları, həmkarları və tələbələri doğum günü ərəfəsində onun əziz xatirəsini yad edirlər.**

Universitetimizin qocaman müəllimlərindən biri, vicdanlı və fədakar həkim, Fatimat Yəhya qızı Adıgözəlova 1928-ci ilin mayında Göyçay şəhərində anadan olmuşdur.

Orta təhsilini 1944-cü ildə başa vurduqdan sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olan Fatimat xanım 1949-cu ildə ali məktəbi müvəffəqiyyətlə bitirərək anadan olduğu Göyçay rayonunda həkim kimi fəliyyətə başlamışdır. Beş il müddətində təcrübi təbabət sahəsində çalışaraq klinik təcrübə toplamış və 1955-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun daxili xəstəliklərin propedevtikası kafedrasının ordinaturasına daxil olmuşdur. Fatimat xanım həmin kafedrada 1957-66-cı illərdə baş laborant, 1966-69-cu illərdə assistent kimi fəaliyyət göstərmişdir.

O, kafedranın baş laborantı kimi fəaliyyət göstərdiyi illərdə tədqiqat işini müvəffəqiyyətlə başa çatdırmış və 1966-cı ildə namizədlik dissertasiyasını müdafiə edərək, tibb elmləri namizədi elmi dərəcəsi almışdır. 1969-cu ildə ona dosent elmi adı verilmiş və ömrünün sonunadək Azərbaycan Tibb Universitetində dosent vəzifəsində fəaliyyət göstərmişdir.

O, uzun illər ərzində görkəmli alim, Azərbaycanda klinik təbabətin banilərindən biri olan professor Məmməd Əmin Əfəndiyevin rəhbərlik etdiyi, sabahın həkimləri üçün sözün əsl mənasında bilik məbədi olmuş daxili xəstəliklərin propedevtikası kafedrasında öz dövrünün tanınmış peşəkar mütəxəssisləri ilə çiyin-çiyinə çalışmışdır. O, ömrünün sonunadək həmin məktəbin ənənələrinə sadiq qalaraq gənc həmkarları üçün əvəzolunmaz örnək olmuşdur.

On ildən artıq bir dövrdə Fatimat xanım ilə bir kafedrada çalışmaq, həmin illər ərzində onun şəxsi və professional keyfiyyətlərindən, məsləhət və nəsihətlərindən bəhrələnmək mənə də nəsib olub.

Fatimat xanım seçdiyi çətin, lakin nəcib peşənin sirləri, zəngin həyat və pedaqoji təcrübəsini gənclərlə bölüşməkdən xüsusi zövq alar, çətin anlarda qayğı və dəstəyini onlardan əsirgəməzdi. O, özünə və həmkarlarına qarşı çox tələbkar idi. Təbabət və tibb təhsili sahəsində çoxillik fəaliyyətinə baxmayaraq, daim mütaliə edər, öz üzərində yorulmadan çalışardı. O, məşğələ və mühazirələrində şahidi olduğu klinik hadisələrdən maraqlı misallar gətirər, tələbələrinin klinik dünyagörüşünü inkişaf etdirməyə çalışardı.

Fatimat xanım tələbələrinə qarşı həmişə həssas və qayğıkeş münasibət göstərərdi. Gözəl diaqnost, yüksək professionallıq xüsusiyyətlərinə malik olan Fatimat xanım xəstələri ilə də səmimi münasibət qurar, onların müalicəsinə böyük diqqət və məsuliyyətlə yanaşardı. Heç də təsadüfi deyil ki, Tibb Universitetində çalışdığı illər ərzində Fatimat xanım məhz bu xüsusiyyətlərinə görə onunla təmasda olmuş yüzlərlə insanın hörmətini və məhəbbətini qazanmışdı.

Böyük bir məktəbin yetişdirməsi və davamçısı olan Fatimat xanım Adıgözəlova artıq bir ilə yaxındır ki, aramızda yoxdur. Öz ömrünü, biliyini, bacarığını gənc həkimlərin təlim-tərbiyəsinə həsr etmiş peşəkar müəllim, səmimi insan Fatimat xanımın əziz xatirəsi həmkarları və tələbələrinin qəlbində daim yaşayacaq.

**Rəhimə QABULOVA,**
*ATU-nun dosenti*

# KAFEDRALARDA TEC-İN KONFRANSLARI KEÇİRİLİR

**Mayın 3-də Stomatologiya fakültəsinin Tələbə Elmi Cəmiyyətinin növbəti konfransı keçirildi.**



Konfrans iki bölmədən – kliniki və xarici dillər bölmələrindən ibarət olub, müvafiq olaraq ATU-nun stomatoloji klinikasında və xarici dillər kafedrasında keçirildi. Fakültənin dekanı, professor Zöhrab Qarayev kliniki bölmədə əvvəlcə tələbə və gənc həkimləri 1-ci, 2-ci və 3-cü Beynəlxalq tibb konqreslərində Stomatologiya fakültəsi tələbələrinin uğurlu çıxışlarını vurğulayaraq, bu gün ilk addımlarını atan gələcəyin elmi tədqiqatçılarına müvəffəqiyyət arzuladı və məruzəçilərin hamısını qalib adlandırdı.

Kliniki bölmədə 10 məruzə dinlənildi. Məruzələrin



hamısı kliniki xüsusiyyətli olub, stomatologiyanın aktual problemlərinə həsr olunmuşdur. Konfransda terapevtik stomatologiya üzrə - 3, ağız və üz-çənə cərahiyyəsi üzrə - 2, uşaq stomatologiyası üzrə - 3, ortopedik stomatologiya üzrə - 2 məruzə dinlənildi. Məruzəçi tələbələr hazırlıqlı, sərbəst çıxış edərək, kliniki materiallarını əyani surətdə kompüter görüntüləri ilə nümayiş etdirərək, verilən sualları düzgün cavablandırdılar.

Konfransın gedişində professorlar T.Hüseynova və R.Əliyeva, t.e.d. N.Pənahov, t.e.d. A.Paşayev və dosent Ə.Hacıyev aktiv iştirak edərək öz irad və tövsiyələri ilə məruzəçilərə faydalı məsləhətlər verdilər.

Sonra sədr elmi rəhbərlərə, məruzəçilərə və münsiflər heyətinə minnətdarlığını bildirərək, bölmədə fərqlənən məruzələrin "Tələbə və gənc həkimlərin 4-cü Beynəlxalq Tibb Konqresi"nə təqdim olunacağını vurğuladı.

Konfransa yekun vuran professor Zöhrab Qarayev edilən çıxışlara münasibətini bildirərək məruzəçilərin və elmi rəhbərlərin işini müsbət qiymətləndirdi, sonda tələbələr diplom və sertifikatlarla təltif olundular.

* * *

Xarici dillər bölməsi üzrə keçirilən konfransı açan fakültə TEC-in elmi rəhbəri və təşkilat komitəsinin sədr müavini, dosent Ə.Hacıyev məruzəçiləri təbrik edərək onlara çıxışlarında uğur dilədi. Torpaqlarımızın müdafiəsi zamanı qəhrəmancasına şəhid olan əsgər və zabitlərə



həsr edilən çıxışlarla başlayan konfransda 20 məruzə dinlənildi. Onlardan 15 tələbə ingilis, 3 tələbə rus və 3 tələbə alman dilində çıxış etdilər. Tələbələr xarici dildə sərbəst çıxış edərək, kompüter görüntüləri ilə mövzuya uyğun öz fikirlərini auditoriyaya çatdıraraq, suallara düzgün cavab verdilər. Sonda çıxışları ilə fərqlənən tələbələr diplom və sertifikatlarla təltif olundular.



Konfransa yekun vuran dosent Ə.Hacıyev tələbələrin keçən konfranslarda çıxışları ilə müqayisədə onların elmi işə həvəsinin daha da artdığını, bu işin təşkilində kafedra müdiri, professor Z.Məmmədovanın və tələbə elmi dərnəyinin rəhbəri, dosent E.Hüseynovanın zəhmətini xüsusi qiymətləndirdi. O, elmi rəhbərlərə və münsiflər heyətinin üzvlərinə konfransda aktiv iştirakına görə minnətdarlığını bildirdi.

**Ə.HACIYEV,**
*Stomatologiya fakültəsi TEC-in elmi rəhbəri, dosent*

**• Mayın 5-də İctimai fənlər kafedrasında tələbə elmi cəmiyyətinin konfransı keçirilmişdir. İctimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyev konfransı açıq elan etdikdən sonra ictimai fənlər üzrə TEC-ə məsul şəxs, dosent Cavanşir Sadıqov tələbələrə proqrama müvafiq olaraq çıxış üçün söz verdi.**



Ümumilikdə 13 nəfər tələbə TEC-in ictimai fənlər üzrə konfransına elmi iş hazırlayaraq çıxışa təqdim etmişdi. Mövzular çox aktual və maraqlı idi. Təqdim olunan elmi konfrans materiallarının əksəriyyəti ümummilli lider Heydər Əliyevin anadan olmasının 94 illiyinə həsr olunmuşdu. Dahi şəxsiyyətin həyat və fəaliyyətinin tələbə gənclər üçün bir məktəb olduğu onların elmi işlərində də geniş əksini tapmışdı.

800[b] qrup tələbəsi Aytac İsmayılova, 800[a] qrup tələbəsi Fatimə Hacıyeva, 8[a] qrup tələbəsi Fidan Cəfərli, 801[a] qrup tələbəsi Aysel Məhərrəmova, 168[a] qrup tələbəsi Şəhla Adilova, 802[b] qrup tələbəsi Fidan İsmayılova, 160[b] qrup tələbəsi İnci Əzizova, 160[b] qrup tələbəsi Şəfa Novruzlu, 160[b] qrup tələbəsi Şəkər Həsənzadə, 8[b] qrup tələbəsi Ərşad Səfərov, 8[b] qrup tələbəsi Ayşə Səlimzadə, 20[a] qrup tələbəsi Nəzrin Kərimzadə və 801[b]



qrup tələbəsi Hacər Babayevanın məruzə etdikləri elmi işlər konfrans iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Son olaraq münsiflər heyəti tərəfindən tələbələrə dolğun və əhatəli çıxışlarına görə təşəkkür edilib, onlara yeni-yeni yaradıcılıq uğurları arzulanıb.

**Elbrus Sadıqov,**
*İctimai fənlər kafedrasının dosenti*

# GÖRKƏMLİ ALİM – ANATOM, İSTƏKLİ MÜƏLLİM

**Alimlərin nüfuzlusu, müəllimlərin istəklisi, tələbələrin sevimlisi olmaq şərəfinin təcəssümçüsünə çevrilən Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası kafedrasının məsləhətçi – professoru, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Rafiq Əşrəf oğlu Əsgərov 64 ilə yaxındır ki, eyni ali təhsil müəssisəsinin eyni kafedrasında dolğun fəaliyyətini səmimiyyət və sədaqətlə davam etdirir. Professor R. Əsgərov həyatının müdriklik çağında gənclik həvəsi ilə ömrünün mübarək gəlişli 85-ci ilinin astanasına ilk addımlarını atır.**

Bu il kafedramızın qocaman professoru, görkəmli elm xadimi, bacarıqlı təşkilatçı, maarifpərvər müəllim adının daşıyıcısı olan Rafiq Müəllim son dövr üçün bu ali tədris ocağının İnsan anatomiyası kafedrasında və bütövlükdə ATU kollektivində məsləhətçi-professor olmaq imzasını atan ilk mütəxəssis oldu. Bu imza ATU-nun Elmi şurasının qərarı ilə təsdiqləndi. Bütün bunları, eləcə də ona göstərilən dövlət qayğısını, ATU rəhbərliyi və kollektivinin ona olan hüsnü-rəğbət duyğularını nəzərə alaraq qarşıdan gələn tədris ilinin kafedramız və onun əməkdaşları üçün rəmzi məna kəsb edən əlamətdar bir il – "Rafiq müəllim ili" olacağını məmnunluqla qeyd edirik.

Professor R.Əsgərov 1933-cü il may ayının 11-də Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açıb. O, ilk təhsilini 1941-1951-ci illərdə Bakıdakı 6 nömrəli orta təhsil məktəbində alıb və 1951-ci ildə ATİ-nin müalicə-profilaktika fakültəsinə daxil olub. Ali təhsil illərinin ilk günlərindən İnsan anatomiyası kafedrasının müdiri, professor K.Balakişiyevin mühazirələrini dinləyib, institut miqyasında tədris edilən ilk tibbi fənn olan insan anatomiyası fənninə bağlanıb və 1954-cü ildə III kurs



tələbəsi ikən "Normal anatomiya" (indiki "İnsan anatomiyası") kafedrasında laborant, V kursda oxuyarkən isə baş laborant vəzifəsində işə qəbul olunub. 1957-ci ildə institutu əla qiymətlərlə başa vuran gənc R.Əsgərov Normal anatomiya kafedrasında aspiranturaya qəbul edilib. O, 1957-ci ildə hələ tələbə ikən Ümumittifaq Lenin Komsomolu Mərkəzi Komitəsinin "Fəxri Fərmanı"na layiq görülüb.

Rafiq müəllim aspiranturanı bitirdikdən sonra 1964-cü ildə "İnsanın nəfəs borusu və bronxlarının innervasiyası" mövzusunda namizədlik, 1973-cü ildə isə "Ağciyərlərin innervasiyası ilə əlaqədar azan sinirin nəqledici aparatının morfologiyası" mövzusunda doktorluq dissertasiyası müdafiə edib, müvafiq olaraq tibb elmləri namizədi və tibb elmləri doktoru elmi dərəcələrinə, eləcə də dosent və professor elmi adlarına layiq görülüb. Gənc alim apardığı anatomik - histoloji və eksperimental - morfoloji tədqiqatlar nəticəsində nəfəs borusu və bronxların incə quruluşlu sinir elementlərini, elektron mikroskopiya, histokimyəvi və eksperimental üsullarla azan sinirin quruluş, yaş və fərdi xüsusiyyətlərini, mielogenezi və mieloarxitektonikasını, morfo-funksional anatomiyasını, innervasiya zonalarını, digər sinirlərlə qarşılıqlı əlaqələrini yeni aspektdə mükəmməl öyrənərək "Aşağı tənəffüs yolları sinirləri" və "Ağciyər sinirləri" adlı müvafiq monoqrafiyalar, çoxsaylı elmi əsərlər çap etdiribdir.

Rafiq müəllimin məharətlə apardığı mühazirə və təcrübə dərsləri həmişə böyük maraqla dinlənilir. Professor R.Əsgərov sırf K.Balakişiyev elmi-pedaqoji məktəbinin yetirməsi olmaqla, həm də bu məktəbin canlı davamçısıdır. Alimin yetişdirdiyi tələbələr təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda bir sıra xarici ölkələrdə -ABŞ-da, Almaniyada, Türkiyədə, İngiltərədə, İsraildə, Fransada və bir sıra digər ölkələrdə də fəaliyyət göstərir, müəllimləri ilə sıx əlaqə saxlayırlar.

Professor R.Əsgərov 1969-cu ildə ATİ-də yeni yaradılan "Hazırlıq şöbəsi"nin müdiri vəzifəsinə təyin edilib, 1985-1990-cı illərdə Operativ cərrahlıq və topoqrafik anatomiya kafedrasının, 1990-1995-ci illərdə İnsan anatomiyası kafedrasının müdiri vəzifələrində çalışıb, 1988-1993-cü illərdə isə ATU-nun elmi işlər üzrə prorektoru vəzifəsini uğurla yerinə yetirib, 1995-ci ildən etibarən kafedranın professoru vəzifəsində çalışıb. Uzun illər ATU-nun Elmi şurasının, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspert şurasının üzvü olub. Görkəmli alim 200-dən artıq elmi əsərin, o cümlədən monoqrafiya, dərslik və dərs vəsaitlərinin, elmi-kütləvi məqalələrin, bir sıra maariflləndirici orijinal kitabların müəllifidir. Yüksək erudisiyaya, mədəni səviyyəyə, insani keyfiyyətlərə malik olan Rafiq müəllim fərdi təxəyyül gücünün rəngarəng spektrindən istifadə edərək tanıdığı tanınmışlar haqqında publisistik oçerklər yazır ki, bu da onda çox yaxşı alınır.

Professor R.Əsəgərov Cənubi Qafqaz Ölkələri Morfoloqlarının I-V konfranslarının, Ümumittifaq Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyətinin VIII-XI qurultay və simpoziumlarının, bir sıra digər elmi forumların iştirakçısı olub, elmi məruzələrlə çıxışlar edib.

Alimin elmi-pedaqoji və ictimai fəaliyyəti ölkə rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib. O, 2000-ci ildə "Tərəqqi" medalına, 2007-ci ildə "Əməkdar elm xadimi" fəxri adına, bir sıra fəxri fərmanlara və digər təltiflərə layiq görülüb.

Həmkarımız olan professor Rafiq müəllimə bu gözəl bahar günlərində uzun ömür, cansağlığı diləyir, tükənməz enerjisini saf duyğulara sərf etməsi üçün qarşıdakı illərdə də ona xoş əhval-ruhiyyə, yeni yaradıcılıq nailiyyətləri arzulayırıq.

**ATU-nun İnsan anatomiyası kafedrasının professor-müəllim heyəti**

# Texnogen qəzalar zamanı əhalinin mühafizəsinin təşkili

**Dövlət və cəmiyyətin əsas problemlərindən biri də sülh və ya hərbi dövrdə əhalinin yaşaması və fəaliyyətinin təhlükəsizlik təminatının yaradılmasıdır. Bu məqsədlə fövqəladə halların idarə olunması üzrə xüsusi qurumlar yaradılır. Bu məsələlərin həlli həmçinin yerli icraedici və idarəetmə orqanlarına tapşırılır.**

Hüquqi dövlət kimi Azərbaycan Respublikasında bu sahədə bütün məsələləri tənzimləyən qanunlar və digər normativ sənədlər mövcuddur və aktuallığını bu gün də qoruyur. Nüvə enerjisinin əldə olunması və ölkə iqtisadiyyatının inkişafında rolu çox böyükdür.

Azərbaycan Respublikası 1993-cü ildən Beynəlxalq Mülki Müdafiə Təşkilatının üzvlüyünə qəbul edilmiş və BMT-in bütün konvensiyalarının tələblərini yerinə yetirməyi öz öhdəsinə götürmüşdür. Ona görə müstəqillik dövründə bir sıra qanunlar qəbul edilmişdir. Təsadüvi deyil ki, BMT yanında MAQATE təşkilatı bütün ölkələrdəki AES-dəki texniki vəziyyət və istismar qaydalarını müntəzəm yoxlayır. Bu cür tədbirlər 1985-ci il Çernobıl və 2011-ci il Fukusimo AES qəzalarından sonra daha tez-tez aparılır. Maraqlı məqamlardan biri də odur ki, müasir dövrün ən dəhşətli texnogen qəzaları məhz aprel aylarında baş vermişdir və nəticələri bu günə qədər aradan qaldırılmamışdır.Qeyd etməliyik ki, Cernobıl AES-də baş verən qəzanın nəticələrinin aradan qaldırılmasında 6000 nəfər













soydaşımız iştirak etmişdir. Onlardan 3000 nəfəri dünyasını dəyişmiş və 3000 nəfəri isə hal-hazırda əmək qabiliyyətini itirmiş vətəndaşlar kimi Azərbaycan Dövlətinin xüsusi himayəsindədirlər. Ukrayna və Belarusiyada isə ağır demoqrafik və ekoloji vəziyyət yaranmışdır. Bu cür ağır nəticələr kimya sənayesi müəssisələrində baş verəcək qəzalarda da gözlənilir. Ona görə nüvə və kimya sənayesi müəssisələri yaşayış məntəqələrindən aralı tikilməli, nüvə məhsullarının istehsalı, saxlanılması və daşınma qaydalarına ciddi əməl olunmalıdır.

Qəzalar baş verən zaman FHN-in Böhranlı Vəziyyətlərin İdarə Olunması mərkəzinə və əlaqədar qurumların qaynar xətlərinə məlumat verilməlidir. Qəza ocaqlarına yaxın yerdə qərargah yaradılmalı, səmərəli iş fəaliyyəti üçün bütün vəsaitlərlə təmin olunmalıdır.

Azərbaycan Respublikasının "Əhalinin Radiasiya Təhlükəsizliyi Haqqında" Qanunu ulu öndər Heydər Əliyev tərəfindən imzalanmışdır. Bu Qanun radioaktiv şua mənbələri sahəsində qəzasız fəaliyyətin, əhalinin radiasiya təhlükəsindən qorunması və sağlamlığının mühafizə edilməsinin hüquqi əsaslarını müəyyən edir. Qanun VI fəsil və 28 maddədən ibarətdir.

**Kimyəvi qəzaların baş verdiyi təqdirdə tətbiq olunan əsas kimyəvi mühafizə tədbirləri aşağıdakılardır:**

** kimyəvi qəza faktının aşkarlanması və bu barədə xəbərdarlıq olunması;*

** qəza rayonunda kimyəvi şəraitin müəyyən olunması;*

** qəza təhlükəli kimyəvi maddələrlə (QTKM) çirklənmiş ərazilərdə fəaliyyət rejimlərinin gözlənilməsi;*

** əhali, qəza obyektinin şəxsi personalı, qəza nəticələrinin aradan qaldırılmasında iştirak edənlərin tənəffüs orqanları və dərisinin qorunması üçün fərdi mühafizə vasitələri ilə təmin olunması;*

** lazım gəldikdə əhalinin kimyəvi zədələnmə zonasından təxliyə olunması;*

** əhali və işçi personalın QTKM-dən mühafizəsini təmin edən sığınacaqlarda yerləşdirilməsi;*

** antidotların və dərinin təmizlənməsi üçün istifadə olunan digər vasitələrin operativ tətbiqi;*

** əhali, qəza obyektinin şəxsi personalı qəza nəticələrinin aradan qaldırılmasında iştirak edənlərin sanitar baxışdan keçirilməsi;*

** qəza obyektinin, sənaye, sosial, yaşayış tipli obyektlərin, nəqliyyatın, digər texniki vasitələrin, geyim və əmlakın zərərsizləşdirilməsi.*

## Radiasiya qəzası barədə xəbərdarlıq olduqda nə etməli?

**Küçədə olduğunuz zaman tənəffüs orqanlarını qorumaq üçün dəsmaldan (şərfdən) istifadə edin və dərhal sığınacaq axtarın.*

** Sığınacağa çatan zaman üst geyimi və ayaqqabılarınızı soyunub plastik paketlərə qoyun.*

** Qapı və pəncərələri bağlayın, yerli orqanların göstərişlərini və qəza haqqında ətraflı məlumatı almaq üçün televizor və radionu yandırın.*

** Ventilyasiya çıxışları və pəncərədə olan çatları bağlayın.*

** Kifayət qədər su və hermetik qablar yığın.*

** Açıqda olan ərzaq məhsullarını polietilen örtüklərə büküb soyuducuya qoyun.*

** Tənəffüs orqanlarının qorunması üçün respirator, pambıq-tənzifli sarğılardan və ya suda isladılmış adi parçadan istifadə edin.*

** Əgər zərurət yaranarsa yodlu profilaktik tədbirlər edin; 7 gün ərzində hər gün 1 ədəd (0, 125 qr) olmaqla kalium yod həblərini qəbul edin; 5 yaşa qədər olan uşaqlar həbin 1/4 hissəsini qəbul edə bilər, 5 yaşından 15 yaşa qədər olan uşaqlar 1/2 həb qəbul etməlidir;*

** Kalium yod həbləri olmadıqda məhlulundan istifadə etmək olar: 3-5 damcı 5%-li yod məhlulunu bir stəkan suda həll edin, 2 yaşa qədər olan uşaqlar üçün 1-2 damcı kifayətdir.*

Bu sahədə əhalinin maarifləndirilməsi işində təkcə əlaqədar qurumlar deyil, eyni zamanda kütləvi informasiya vasitələrinin imkanlarından istifadə olunmalıdır. Mühafizə tədbirlərinin öyrədilməsi ilk növbədə orta məktəblərdə təşkil olunmalıdır.

A.Musayev,
*Mülki Müdafiə Tibb Xidmətinin Təşkili kursunun baş müəllimi*

**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ**
**AZƏRBAYCAN TİBB UNİVERSİTETİ**

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

**Kafedraların müdirləri:**
- Fizioterapiya və idman təbabəti kafedrası
- Komunal və qidalanma gigiyenası kafedrası
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası
- Ümumi və toksikoloji kimya kafedrası

**Kafedranın professoru:**
- Epidemiologiya kafedrası - 1 yer

**Kafedraların dosentləri:**
- Onkologiya kafedrası - 1 yer
- I uşaq xəstəlikləri kafedrası - 1 yer (0,75 vahid)
- Uşaq cərrahlığı kafedrası - 1 yer (0,5 vahid)
- III uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer
- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası - 1 yer
- Farmakologiya kafedrası - 2 yer
- Azərbaycan dili kafedrası -1 yer
- Bioloji kimya kafedrası -1 yer
- Mikrobiologiya və immunologiya kafedrası -1 yer
- Ümumi gigiyena və ekologiya kafedrası -1 yer

**Kafedraların assistentləri:**
- Tibbi biologiya və genetika kafedrası - 1 yer (0,5 vahid)
- I mamalıq və ginekologiya kafedrası - 1 yer
- I mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- I daxili xəstəliklər və reanimatologiya kafedrası - 1 yer
- II daxili xəstəliklər kafedrası - 1 yer
- Onkologiya kafedrası - 1 yer (0,5 vahid)
- I uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Uşaq cərrahlığı kafedrası - 1 yer (0,5 vahid)
- Travmatologiya və ortopediya kafedrası - 1 yer (0,5 vahid)
- Psixiatriya kafedrası - 1 yer (0,5 vahid)
- Şüa diaqnostikası və terapiyası kafedrası -1 yer
- II uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Uşaq stomatologiyası kafedrası - 1 yer (0,5 vahid)
- Ümumi gigiyena və ekologiya kafedrası - 1 yer

**Kafedraların baş müəllimləri:**
- Mülki Müdafiənin Tibb Xidməti kursu - 1 yer
- Əczaçılıq kimyası kafedrası - 1 yer
- Latın dili kafedrası - 1 yer
- Bioloji kimya kafedrası - 1 yer
- Mikrobiologiya və immunologiya kafedrası - 2 yer
- Ümumi gigiyena və ekologiya kafedrası - 1 yer
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer

**Kafedraların müəllimləri:**
- Azərbaycan dili kafedrası - 1 yer
- Azərbaycan dili kafedrası - 1 yer (0,5 vahid)

**Elmi Tədqiqat Mərkəzi**
- Patoloji proseslərin maddələşdirilməsi və eksperimental terapiya şöbəsi (kiçik elmi işçi) - 1 yer
- Eksperimental cərrahi şöbəsi (baş elmi işçi) - 1 yer

**Biokimya kafedrası üzrə elmi tədqiqat laboratoriyası:**
- Biokimya kafedrası üzrə Elmi Tədqiqat Laboratoriyası (kiçik elmi işçi) - 1 yer (0,5 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-43-23**

# Tədris Cərrahiyyə Klinikasında üst dodağın rezeksiya əməliyyatı aparılıb



- **Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının ağız və üz-çənə cərrahiyyəsi kafedrasının elmi-praktik istiqamətlərindən biri anadangəlmə və qazanılma qüsurların aradan qaldırılmasıdır. Xüsusən, üz-çənə nahiyəsində müxtəlif səbəblərdən (şiş götürülməsindən, travmadan sonra) yaranan toxuma qüsurlarının aradan qaldırılması yolları və bu məqsədlə istifadə olunan müxtəlif növ dilimlərlə bərpa edici əməliyyatların effektivliyi artırılır.**

Tədris Cərrahiyyə Klinikasının ağız və üz–çənə cərrahiyyəsi şöbəsinin müdiri Məhəmməd Davudov dediyinə görə, belə əməliyyatlardan biri bu yaxınlarda onlar tərəfindən icra edilib: “ Xəstəmizdə üst dodağın törəməsi ilə əlaqədar olaraq üst dodaq tam şəkildə rezeksiya olundu. əmələ gələn qüsurun həcmini və nahiyənin funksional əhəmiyyətini nəzərə alaraq toxuma qüsurunun sərbəst damar ayaqcıqlı ön qol dilimi ilə aradan qaldırılması əməliyyatına qərar verdik. Əməliyyatımız klinikamızın həkim travmatoloqu və əl cərrahiyyəsi üzrə ixtisaslaşmış doktor Nicat Səttarovun iştirakı və dəstəyi ilə uğurla nəticələndi. Həm funksional, həm də estetik baxımdan qənaətbəxş nəticə əldə olundu”.

*ATU-nun mətbuat xidməti*

## Etibarsız sayılır

Stomatologiya fakültəsinin III kurs, $721^b$ qrup tələbəsi Qədirova Yunisə Bəşarət qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, $100^b$ qrup tələbəsi Məhəmmədli Səma Fuad qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, $164^b$ qrup tələbəsi Qədimova Zümrüd Cəfər qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $40^b$ qrup tələbəsi Allahverdi Fuad Şahin oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, $203^b$ qrup tələbəsi Sultanlı Nəzrin Fəxri qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, $245^a$ qrup tələbəsi Abduləliyeva Ayan Firuz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Qasımova Səbinə Lazım qızına 2000-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən pediatr ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, $201^a$ qrup tələbəsi Abbasova Məryam İlqar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, $76^b$ qrup tələbəsi Neçirvan Yılmazın adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin IV kurs, $742^a$ qrup tələbəsi İbrahimova Kübra Rza qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, $170^a$ qrup tələbəsi İbrahimova Aynurə Bayram qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, $169^b$ qrup tələbəsi Nemətzadə Sona Fərhad qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# İDMANÇILARIMIZIN UĞURLU ÇIXIŞI

**Respublikanın 25 ali məktəb tələbələri arasında keçirilmiş 2017-ci ilin Universiadasında universitetimizin idman klubu komanda hesabında 280 xal yığaraq I yerə (İdman Akademiyası müsabiqədən kənar) layiq görülmüşdür.**



Universitetimizin rektoru, professor Gəray Gəraybəyliyənin diqqət və qayğısı sayəsində komandamızın yarışlarda fəal iştirakı üçün hər cür şərait yaradılmış, yarışların maliyyələşdirilməsi, iştirakçıların idman geyimi ilə təmin olunması yüksək səviyyədə həyata keçirilmişdir. Məhz bunun nəticəsində tələbələrimiz ali təhsil müəssisələri arasında 14 idman növü üzrə keçirilən 2017-ci ilin Universiadasında müvəffəqiyyətlə çıxış etmişdir: Basketbol üzrə (oğlanlar, məşqçi S.İsayeva) I, voleybol üzrə (oğlanlar, məşqçi C.Babayev) I, dama üzrə (məşqçi professor K.Kəbirlinski) I, sərbəst güləş üzrə (məşqçi professor Z.Məmmədov) I, Yunan-Roma güləşi üzrə (məşqçi professor Z.Məmmədov) I, yüngül atletika üzrə (qızlar, məşqçi X.Şıxlı) II, voleybol üzrə (qızlar, məşqçi Ş.Bayramov) II, badminton üzrə (qızlar, məşqçi N.Mehdiyeva) II və badminton üzrə (oğlanlar, məşqçi N.Mehdiyeva) II yerə layiq görülüblər.

Bu qələbənin qazanılmasında idman klubunun sədri professor Kamal Kəbirlinskinin əməyi xüsusi qeyd edilməlidir. Onun rəhbərliyi sayəsində müəllim-məşqçilər yüksək fədakarlıq göstərmişlər.

Bu qələbələr münasibətilə “Təbib” idman klubunun bütün müəllim-məşqçilərini təbrik edir, daima zirvələrdə olmalarını arzulayırıq.

**Q.ASLANOV,**
*“Təbib” idman klubunun müəllim-məşqçisi*

# Ürək ağrılarına qarşı... dəniz kələmi

**Danimarka alimlərinin fikrincə, dəniz kələmi damar divarlarını möhkəmləndirdiyi üçün ürək ağrılarından əziyyət çəkənlərin onunla qidalanması faydalıdır. AZƏRTAC «AiF Zdorovye» qəzetinə istinadla xəbər verir ki, onlar bu qənaətə apardıqları təcrübədən sonra gəliblər.**



Tədqiqatçılar təcrübə zamanı ürək-damar xəstəliyindən əziyyət çəkənləri iki qrupa ayırıblar: bir qrup adəti qaydada qidalanıb, o biri qrupun yeməyinə isə dəniz kələmindən əlavələr ediblər. Məlum olub ki, hər gün qida rasionuna dəniz kələmi əlavə edənlərdə ürəyin işi stabilləşib, arterial təzyiq normaya düşüb və onlar özlərini kifayət qədər yaxşı hiss edirlər.

Bununla belə bir sıra qastroenteroloji patologiyalar zamanı ondan istifadə etmək olmaz, ona görə də əvvəlcədən həkimlə məsləhətləşmək lazımdır.

## Allah rəhmət eləsin!

“Təbib” qəzetinin kollektivi, fizioterapiya və idman təbabəti kafedrasının əməkdaşları kafedranın assistenti, t.ü.f.d. Nurlana Əliyevaya atası

**Vilayət müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

III cərrahi xəstəliklər kafedrasının əməkdaşları kafedranın professoru

**Baxşəliyev Baxşəli Rəsul oğlunun**

vəfatından kədərləndiklərini bildirir vəmərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın dosenti Nazim Əzizova anası

**Sahibə xanımın**

vəfatından kədərləndiklərini bildirir vədərin hüznlə başsağlığı verirlər.

Nevrologiya kafedrasının əməkdaşları kafedranın dosenti Ramin Rzaye və əzizi

**Rəna xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznləbaşsağlığı verirlər.

Latın dili kafedrasının əməkdaşları kafedranın müəllimi Esmira Hacıyevaya qaynanası

**Cənnət xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qidalanma vəkommunal gigiyena kafedrasının əməkdaşları kafedranın tədris hissə müdiri Təranə İskəndərovaya əzizi

**İvram Bayramovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet “Təbib” qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, “Bəxtiyar-4” İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tibbqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800